Azərbaycan Respublikasının Prezidenti
yanında Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Azərbaycan Tarixçiləri
İctimai Birliyi

AMEA Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU



İrəvan
XANLIĞI



# Erməni vandallarının yox etdiyi İRƏVAN QALALARI

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur

Layihə rəhbəri,
Ön sözün müəllifi və
elmi redaktor: **Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı Laureatı*

Rəyçi : **İradə Məmmədova**
*tarix üzrə fəlsəfə doktoru*

Texniki redaktor: **Mehri Xanbabayeva**
*riyaziyyat üzrə fəlsəfə doktoru*

**Güntəkin Nəcəfli**
***Erməni vandallarının yox etdiyi İrəvan qalaları.*** Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2017. - 44 s.

ISBN 978-9952-8268-4-5

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2017

Azərbaycan Milli Elmlər Akademiyası
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Azərbaycan
Respublikasının
Prezidenti

**İLHAM ƏLİYEVİN**

təşəbbüsü
ilə yazılmışdır.

Bilirsiniz ki,
alimlərimiz mənim təşəbbüsümlə
İrəvan xanlığı haqqında böyük
elmi əsər yaratmışlar. Bunun çox böyük
əhəmiyyəti vardır. Ancaq bu əsər daha çox
faktoloji və elmi məsələləri əks etdirir.
Hesab edirəm ki, daha geniş
auditoriyaya çatdırmaq üçün
kiçik həcmli broşürlər də buraxılmalıdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Azərbaycanın diplomatik xidmət*
*orqanları rəhbərlərinin beşinci*
*müşavirəsindəki nitqindən.*
*7 iyul 2014-cü il*



# Oxuculara

Müasir Ermənistan Respublikasının ərazisi tarixi Azərbaycan torpaqlarıdır. 1918-ci il mayın 29-da erməni dövləti yaradılmasından əvvəl, bütün tarixi dövrlərdə həmin torpaqlar həmişə Azərbaycana məxsus olmuşdur. Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmiş hürrilər, kimmerlər, iskitlər, saklar, hunlar, çoxsaylı oğuz və qıpçaq türkləri məhz bu regionda, xüsusilə Göyçə gölü ətrafındakı torpaqlarda yaşamış və özlərindən sonra zəngin tarixi-mədəni iz qoymuşlar.

Azərbaycan xalqının və digər türk xalqlarının qəhrəmanlıq eposu olan "Kitabi-Dədə Qorqud" dastanlarında təsvir olunan bir çox mühüm tarixi hadisələr, proseslər Azərbaycanın məhz bu regionunda cərəyan etmişdir. Böyük Azərbaycan hökmdarı Uzun Həsənin (1468-1478) tapşırığı ilə yazılmış Oğuznamədə – Əbu Bəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərində oğuz türklərinin soy kökündə duran Oğuz xaqanın məhz burada – Göyçə gölü* ətrafındakı Azərbaycan torpaqlarında yaşadığı, dünyasını burada dəyişdiyi və burada da dəfn olunduğu qeyd edilir. Xanlar

* **1918**-ci il mayın 29-da Azərbaycan torpağı olan kecmiş İrəvan xanlığının ərazisində erməni dovləti yaradıldıqdan sonra **Göyçə** gölünün adı **1930**-cu ildə ermənilər tərəfindən dəyişdirilib **"Sevan"** adlandırılmışdır.





xanı Bayandur xaqan və bir çox digər oğuz-türk sərkərdələri də özlərinin ata-baba yurdu olan bu diyarda fəaliyyət göstərmiş, burada da dünyalarını dəyişmiş, dəfn olunmuşlar.[1]

İlk mənbələr təsdiq edir ki, ayrı-ayrı işğalçı imperiyaların hökmranlıq dövrləri istisna edilməklə, müasir Ermənistan Respublikasının ərazisi ən qədim zamanlardan başlayaraq həmişə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bu ərazi sonrakı tarixi dövrlərdə də Azərbaycan sülalələri olan Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Əfşarların idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Orta əsrlərdə Azərbaycan hakimləri olan Çuxursəd əmirləri və İrəvan xanlarının idarə etdikləri bu torpaqlar həm də Azərbaycan-türk tayfalarının elliklə və ən sıx şəkildə yaşadığı regionlardan biri idi.

Azərbaycan Qaraqoyunlu dövlətinin (1410-1468) yarandığı zamandan başlayaraq Çuxursəd bölgəsi və İrəvan məntəqəsi daha da süətlə inkişaf etmişdir.

İrəvan bölgəsi möhtəşəm qalalarının və hərbi istehkamlarının  daha çox olması ilə Azərbaycanın digər bölgələrindən fərqlənirdi. Bölgənin yadelli işğalçılarından qorunmasında bu qalalar böyük rol oynamışdı. İstər orta əsr səyyahları, istərsə də XVIII-XIX əsrlərə aid müxtəlifdilli ilk mənbələr İrəvan bölgəsindəki İrəvan, Qaranquş, Keçi Qala-

[1] Geniş məlumat üçün bax: Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. (Fars dilindən tərcümə edən, ön söz, şərhlər və göstəricilərin müəllifi Rahilə Şükürova). Bakı, 1998, s.46-47.



sı, Qaraqala, İmamverdi, Sərdarabad, Talın, Gümrü, Şörəyel və digər qalalar haqqında məlumatlar verirlər. Həmin məlumatlar da bu qalaların sahiblərinin – bölgənin aborigen əhalisinin məhz Azərbaycan türkləri olduğunu təsdiq edirlər.

İrəvan qalasının tutulması ilə Şimali Azərbaycanın bütün ərazisi Rusiya imperiyasının tərkibinə qatıldı. İşğaldan sonra Qacarlar İranı və Osmanlı dövləti ərazilərindən köçürülüb gətirilən ermənilər İrəvan bölgəsində mövcud olan bütün tarixi abidələrimiz kimi, İrəvan qalalalarını, o cümlədən Azərbaycan xalqının qəhrəmanlıq mübarizəsi tarixinin ən şanlı və ən parlaq simvolu olan İrəvan və Sərdarabad qalalarını da dağıdıb məhv etdilər.

**"Erməni vandallarının yox etdiyi İrəvan qalaları"** adlanan bu kitabça İrəvan bölgəsində mövcud olan və erməni vandalları tərəfindən amansızcasına məhv edilən Azərbaycan qalalarının tarixinə, o cümlədən məşhur İrəvan və Sərdarabad qalalarının XIX əsrin birinci rübündə baş vermiş Rusiya-İran müharibəsi zamanı yadelli işğalçılara qarşı apardığı şanlı mübarizə tarixinə həsr olunmuşdur.

**Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*





## Ermәni vandallarının yox etdiyi İrәvan qalaları

Hazırda Ermәnistan Respublikasının yerlәşdiyi әrazi yaxın keçmişdә – XIX әsrin әvvәllәrindә Azәrbaycan dövlәti olan İrәvan xanlığının torpaqları idi. Bu torpaqların әn qәdim yerli әhalisi – aborigen sahiblәri Azәrbaycan türklәri idi. Lakin tarixin amansız axarlarında, 1918-ci ildә İrәvan şәhәri ermәnilәrә güzәşt edildi. Belәliklә, Cәnubi Qafqazda tarixdә ilk dәfә olaraq ermәni dövlәti yaradıldı.

İrәvan (Çuxursәd) bölgәsinin yerlәşdiyi әrazi qәdim dövrdә vә erkәn orta әsrlәrdә Urartu, Әhәmәni, Sasani, Әrәb Xilafәti, orta әsrlәrdә Sacilәr, Salarilәr, Şәddadilәr, Sәlcuqlar, Atabәylәr, Hülakülәr, Cәlairilәr vә hәtta Teymur dönәmindә dә Azәrbaycanın sәrhәdlәri daxilindә olmuşdur. Azәrbaycan Qaraqoyunlu dövlәtinin (1410-1468) yarandığı zamandan başlayaraq Çuxursәd adlanan bu bölgә vә onun mәrkәzi İrәvan şәhәri daha da süәtlә inkişaf etmişdir.

İrәvan bölgәsi möhtәşәm qalalarının vә hәrbi istehkamlarının daha çox olması ilә Azәrbaycanın digәr bölgәlәrindәn fәrqlәnirdi. Bölgәnin yadelli işğalçılarından qorunmasında bu qalalar böyük rol oynamışdı. Müxtәlif dilli orta әsr mәnbәlәri vә Rusiya işğalından sonra tәrtib edilәn rusdilli mәnbәlәr İrәvan bölgәsindәki ***İrәvan, Qaranquş, Keçi Qalası, Qaraqala, İmamverdi, Sәrdarabad, Talın, Gümrü, Şörәyel*** vә digәr qalalar haqqında mәlumatlar verirlәr.

İrәvan şәhәri Osmanlı dövlәtinin sәrhәdlәrinә yaxın olduğu üçün Şah İsmayıl onun möhkәmlәndirilmәsinә xüsusi



diqqət yetirmiş və bu şəhərdə daha bir qala – ***Qaranquş qalasını*** tikdirmişdi.[1]

XVII əsrin II yarısında İrəvanda olmuş fransız səyyahı J.Şarden yazırdı: *"Qalaya (İrəvan qalası – red.) yaxın, haradasa min addımlıq bir məsafədə, şimal tərəfdə yerləşən təpədə kiçik bir qala da vardır. O, ikiqat divarla və artilleriya ilə möhkəmləndirilmişdir. Orada iki yüz adam yerləşə bilər. Bu kiçik qalanın adı Keçi qalasıdır".*[2]

1805-ci ildə Üçkilsəni tutan rus qoşunları Keçi qalasını da ələ keçirmişdi.[3]

***Sərdarabad qalası*** İrəvan qalasından sonra ikinci ən böyük *qala-şəhər* olmaqla bərabər Azərbaycanın ən möhtəşəm orta əsr qalalarından biri idi. Qalanın əsası İrəvan xanı Hüseynqulu xan Qacar tərəfindən təqribən 1810-cu ildə qoyulmuşdur. *Araz çayının sol sahilində yerləşən Sərdarabad qalasının ikiqat hörgülü, hündür divarları uzunsov dördbucaqlı formasında idi. Top yerləşdirmək üçün uzun (yan) divarlarda 6, qısa divarlarda isə 4 bürcü var idi. Dərin xəndəklə əhatə olunan qalanın döv-*

---

[1] Ernst Honigmann. Bizans devletinin doğu sınırı. (Tercüme eden Fikret İşıltan). İstanbul, 1970, s.175; Bax: Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı müharibələri dövründə (XVI-XVII əsrin I yarısı). // Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları (27-28 oktyabr, 2010. Azərbaycan, Şəmkir, Gədəbəy). Bakı, 2012, s.459.

[2] Chardin Seyahatnamesi. *İstanbul, Osmanlı Toprakları, Gürcistan, Ermenistan, İran 1671-1673* (Çevri Ayşe Meral). İstanbul, 2014, s.258.

[3] АКАК, (издан под ред. председателя комиссии А.Д.Берже), т.II. Тифлис, "Тип. Главного Управления Наместника Кавказского", 1868, док.1780, с.862.





**Şəkil 1.** *Sərdarabad qalası*



***Miniatür. İrəvan qalası.***

*rəsi 4 verstə yaxın idi. Burada Sərdarın sarayından başqa 700-dək ev, 1 məscid, 33 dükan, 16 dəyirman, 1 ding, 4 yağçəkən zavod, 1 boyaqxana və sərdara məxsus geniş bağ vardı. Əhalisi əkinçilik, maldarlıq, xırda ticarət, bez toxuculuğu, dəmirçilik, dərzilik və digər sənət sahələri ilə məşğul olurdular.*[1]

İrəvan bölgəsində tikilmiş qalalar içərisində ən möhtəşəmi və mənbələrdə daha çox xatırlanan **İrəvan qalasıdır**.

İrəvan qalasının salınması ilə bağlı ilk yazılı məlumat Səfəvilər dönəminə aiddir. İrəvan şəhərinin əlverişli coğrafi mövqeyini nəzərə alan böyük Azərbaycan hökmdarı *"Şah İsmayıl h.915-ci il (m.1509/1510) tarixində Zəngi çayının şərq*

[1] Bax: İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009, s.146.



*sahilində qala salınması üçün Rəvanqulu xanın adına fərman göndərmişdir. 7 il müddətinə salınmış bu qala Rəvanqulu xanın şərəfinə* ***İrəvan qalası*** *adlandı".*[1]

### *İrəvan qalası səyyahların təsvirində*

XVII əsrin ortalarında İrəvanda olmuş fransız səyyahı Jean-Bartiste Tavarnier İrəvan şəhər-qalasını təsvir edərkən onun iki hissədən – *içəri şəhər* və *bayır şəhərdən* ibarət olduğunu qeyd edirdi. Qalanı təsvir edən səyyah yazırdı: "*İçəri şəhərdə* yalnız xan özü, ordu başçıları və hərbiçilər yaşayırlar. Qalada yerləşən xanın imarəti çaya baxır. Xan çox güclüdür və onun hər zaman sərhədi qorumağa qadir ordusu vardır.[2]

XVII əsrin 70-ci illərinin əvvəllərində İrəvanda olmuş fransız səyyahı J.Şarden içəri şəhərin, yəni qalanın təsvirini vermişdir: "Qala kiçik bir şəhərdən böyük-



***Şəkil 2.*** *Fransız səyyahı Tavernierə görə İrəvan şəhərinin görünüşü. 1655-ci il*

[1] Evliya Çələbi "Səyahətnaməsi"ndə Azərbaycan. (Nəşrə hazırlayan Mehmet Rıhtım). Bakı, 2012, s.86-87.

[2] Tavarnier Seyahatnamesi Stefanos Yerasimosun Anısına (Çeviren Teoman Tunçdoğan). İstanbul, 2006, s.75.





dür. O, oval formadadır, dairəsi dörd min addım olub, təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar. ...Qalanın müdafiəsi üçün iki min əsgər ayrılmışdır. Hakimin sarayı qalanın içərisindədir. ...Şəhərdə və qalada çoxlu hamam və karvansaray vardır".[1]



***Şəkil 3.*** *Fransız səyyahı Şardenə görə İrəvan şəhərinin görünüşü. 1672-ci il*

XX əsrin əvvəllərində Fransanın Belçikada (Brüssel) səfiri olmuş, fransız tədqiqatçı Herbet Moris (1871-1929) İrəvanlı Məhəmməd Rza bəyə həsr etdiyi tədqiqat əsərində (*"İran səfirliyi XIV Lüdoviqin qəbulunda", Paris, 1907*) fransız səyyahı J.Şardenin İrəvan şəhər-qalası ilə bağlı yazdıqlarını öz əsərində bir daha təqdim etmişdir. Müəllif əlavə olaraq qeyd edir ki, İrəvan (içəri şəhər – *red.*) oval formalı, dördbucaqlı qala idi. Torpaq və gil kərpicdən tikilmiş qala üç divardan ibarət idi. Qala şimal-qərbə doğru dibindən Zəngi çayının

[1] Şarden I. Səyahətnamə (fransız dilindən tərcümə edən V.Aslanov). Bakı, 1994, s.21-22.



axdığı 300 futdan (təqribən 91 metr – *red.*) çox dərinliyi olan dik uçurumun kənarınadək uzanırdı. Qala darvazaları dəmirdən idi, maneələr, dırmıxlar və gücləndirilmiş qaravulxana ilə təchiz edilmişdi. Qalada xanın sarayı uçurumun kənarında yerləşirdi.[1]



**Şəkil 4.** *İrəvan şəhərinin Zəngi çayından görünüşü*

XVII əsrdə İrəvanda olmuş Osmanlı səyyahı Evliya Çələbi İrəvan qala-şəhəri ilə bağlı maraqlı məlumatlar vermişdir: *"Möhkəm dəmirdən hazırlanmış üç darvazası vardır. Təbriz qapısı cənub tərəfə, Meydan qapısı və ya Yayla qapısı şimal tərəfə açılır. Çövkən meydanı burada yerləşir. Qərb tərəfə açılan Körpü qapısına Əcəm dilində "Darvazeyi-Pol" deyərlər. Osmanlıdan qalmış 700 ədəd böyük və kiçik topları var. Digər sursat və cəbbəxanalarının da sayı-hesabı yoxdur. ...Burada 3 min qala gözətçisi, 3 min xan ordusu və 7 min əyalət əsgəri vardır. Bura bir neçə dəfə xanlar xanlığı olmuşdu. Burada qazi, molla, şeyxülşərif, kələntər, darğa, münşi, yasavul ağası, qoruqçubaşı, eşik ağası, dizçökən ağa, 7 nəfər mehmandar və şexbəndər vardır"*.[2]

---

[1] Maurice Herbette. Ambassade Persane Sous Louis XIV. Paris, 1907, p.13.

[2] Evliya Çələbi "Səyahətnaməsi"ndə Azərbaycan.., s.91; Evliya Çələbi. Səyahətnamə (Azərbaycan tarixinə aid seçmələr). (Türk dilindən işləyəni və şərhlərin müəllifi t.e.d., prof. S.Onullahi). Bakı, 1997, s.54-55.







***Şəkil 5.** İrəvan qalasının Zəngi çayından görünüşü*

### *Səfəvi-Osmanlı müharibələri zamanı İrəvan qalasının dağıdılması və yenidən bərpası*

İrəvan şəhəri əlverişli coğrafi mövqedə yerləşdiyi üçün XVI-XVII əsrlərdə baş verən Səfəvi-Osmanlı müharibələri dövründə Osmanlı ordusunun başlıca hücum hədəfinə çevrilmiş və İrəvan qalası dəfələrlə əldən-ələ keçmişdir.

1514-cü il avqustun 23-də Sultan Səlim Çaldıran döyüşündə Şah İsmayılı məğlub edərək Təbrizi ələ keçirsə də, tezliklə geri dönmək məcburiyyətində qaldı. 1552-ci ilin əvvəlində Ərzurum hakimi İskəndər paşa Səfəvilərin sərhədini pozaraq Çuxursədə hücum edib İrəvan bazarını yandırdı və geriyə qayıtdı.[1]

Sultan Süleymanın 1554-cü ildə Azərbaycana IV yürüşü zamanı İrəvan bölgəsi Osmanlı ordusunun növbəti hücumu-

[1] Bax: Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.459.



na məruz qaldı və iyulun 18-də İrəvan qalası ələ keçirilərək tamamilə qarət edildi. Şah Təhmasibə, oğluna və əmirlərə məxsus saraylar dağıdıldı, bağ və bağçalar yerlə-yeksan olundu.[1]

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsinin gedişində İrəvan şəhəri növbəti dəfə Osmanlı ordusunun hücumuna məruz qaldı. 1583-cü ilin avqustunda Şərq yürüşünün yeni hərbi rəhbəri Fərhad paşa 70-80 min nəfərlik qoşunla Çuxursəd vilayətinə daxil olaraq İrəvanı ələ keçirdi. O, İrəvan şəhərində *"Şah bağı"nda Məhəmmədi xan Toxmağın sarayını içinə alan, Zəngi çayının şərq sahilində cənubdan şimala doğru uzanan bir narınqala və bayır qala tikdirdi. 8 qülləli, 5 dəmir qapılı, məscidi və hamamı olan narınqala ilə 43 qülləli bayır qala 45 gün ərzində inşa edildi.*[2]



**Şəkil 6.** *Miniatür. Fərhad paşa İrəvanda.*

[1] Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.460.

[2] Kütükoğlu B. Osmanlı-İran siyasi münasebetleri (1578-1612). İstanbul 1993, s.136;.Bax: Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.461.







**Şəkil 7.** *Miniatür. Cığalazadə Sinan paşa İrəvanda.*

Həmin dövrdə *İrəvanın bayır qalası Zəngi körpüsü, Dəmirbulaq, Abbasdərə, Köşəli, Abıhəyat, Qarabağ və Zoğalqala adlanan yerlərdən keçərək Zəngi çayına dönür və çay boyunca uzanaraq Zəngi körpüsündə birləşirdi. Uzunluğu təxminən 30 km olan qala divarlarında 50-60 bürc var idi.*[1]

Qala divarlarının önünə müdafiəni asanlaşdırmaq üçün sıx ağaclar əkildi. Şəhər ətrafında qaya və daşların az olması möhkəm qala divarlarının tikilməsini çətinləşdirdiyi üçün qala divarlarının qarşısında xəndək qazıldı. 1578-1590-cı illər Səfəvi-Osmanlı müharibəsində Qızılbaşlar məğlub olduğu üçün İrəvan şəhər-qalası da Azərbaycanın digər əraziləri kimi XVII əsrin başlarına qədər Osmanlı dövlətinin idarəçiliyində qaldı.

XVI əsrin sonunda Səfəvi hökmdarı I Şah Abbasın (1587-1629) həyata keçirdiyi hərbi islahatlar nəticəsində odlu silahlarla təchiz

---

[1] Bilgili A.S. Osmanlı ve İran Azerbaycanı I. (16. ve 18. yüzyıllar social ve ekonomik tarih). Erzurum, 2004., s.125; Bax: Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.461.



edilmiş güclü nizami ordu yaradıldı. Səfəvi ordusu 1603-cü il oktyabrın 18-də İrəvan qalasını mühasirəyə aldı. Qalada Şərif paşanın 10 minlik Osmanlı qarnizonu möhkəmləndirilmiş üç istehkam xətti ilə müdafiə olunurdu.

Şəhərin mühasirəsi uzun müddət davam etdi. Şah Abbas *"İrəvan qalasının ətrafında istehkam tikmək üçün Naxçıvan və Culfa əhalisini səfərbərliyə aldı və onların hərbi əməliyyatda iştirak etməsini məsləhət gördü".* 1604-cü il iyunun 8-də İrəvan qalası azad edildi.[1]

Beləliklə, 20 ildən artıq Osmanlı dövlətinin nəzarətində qalan İrəvan qalası azad edildi.

XVII əsrin birinci yarısında İrəvan şəhəri yenidən Osmanlı ordusunun hücumuna məruz qaldı. 1635-ci il iyulun 27-də İrəvan qalasını mühasirəyə alan IV Murad qalanı ağır balyeməz toplar ilə dağıtmağa göstəriş verdi. Ciddi müqavimət göstərilsə də, avqustun 8-də İrəvan qalası böyük çətinliklə ələ keçirildi.[2]

Lakin tezliklə, Səfəvi hökmdarı I Şah Səfinin (1629-1642) Rüstəm xanın komandanlığı altında göndərdiyi ordu 1635-ci il dekabrın 25-də İrəvan qalasını mühasirəyə aldı. Osmanlı qarnizonunun ciddi müqavimət göstərməsinə baxmayaraq, 1636-cı il aprelin 2-də İrəvan qalası Səfəvi ordusu tərəfindən azad edildi.[3]

---

[1] Kütükoğlu B. Osmanlı-İran siyasi.., s.264-267; Bax: Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.466.

[2] Sultan IV Muradın Revan və Tebriz seferi Ruznamesi. Ankara, 1999, 60-61; Bax: Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.467.

[3] Nəcəfli T. İrəvan şəhəri Səfəvi-Osmanlı.., s.469-470.







**Şəkil 8.** *Miniatür. İrəvan qalası. Qravür.*

İrəvan şəhər-qalası Osmanlı işğalından azad edildikdən sonra Səfəvi şahları tərəfindən daha da möhkəmləndirildi. XVIII əsrin I rübündə Səfəvilərin zəifləməsindən istifadə edən erməni din xadimləri I Pyotrla əlaqəyə girərək onu Azərbaycan torpaqlarının, o cümlədən İrəvanın işğalına şirnikləndirdilər. Tiflisdəki erməni yeparxiyasının başçısı arxiyepiskop Minas Pərvazyan 1722-ci ilin dekabrında vardapet Minasa yazırdı: *“Sənə məlumdur ki, İrəvan İran (Səfəvi - red.) torpaqlarının açarıdır və bizim niyyətimiz İrəvan qalasını ələ keçirməkdir. Əgər o bizim əlimizdə olarsa, nə türklər, nə də iranlılar bizə heç nə edə bilməyəcəklər”.*[1]

Rusiya 1722-1723-cü illərdə Səfəvi dövlətinin Xəzərsahili vilayatlərini işğal etdi. Bundan narahat olan Osmanlı dövləti Rusiyanı qabaqlamaq üçün 1723-cü ildə öz qoşunlarını Azərbaycana yeritdi. Beləliklə, 88 ildən sonra, 1724-cü ilin

[1] Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı, 2007, s.93.



yayında İrəvan qalası yenidən Osmanlı qoşunları tərəfindən mühasirəyə alındı.

1724-cü ilin yayında Osmanlı sərkərdəsi Arifi Əhməd paşanın başçılıq etdiyi 60 min nəfərlik qoşun tərəfindən mühasirəyə alınan İrəvan qalası 92 gün (6 iyul-7 oktyabr) qəhrəmancasına müqavimət göstərdi. Qalanı ələ keçirə bilməyən Osmanlı sərkərdəsi sultandan əlavə qüvvə göndərilməsini istədi. Osmanlı sultanın öncə 35 min, sonra Kütahyadan 10 min, daha sonra isə Misirdən 3 min nəfərlik əlavə qüvvə göndərməsi nəticəsində İrəvan qalasını böyük çətinliklə ələ keçirildi.[1]

### *İrəvan qalaları – Azərbaycan xalqının mübarizə simvolu*

XIX əsrin birinci rübündə baş vermiş Rusiya-İran müharibəsi zamanı *İrəvan* və *Sərdarabad* qalalarını müdafiə edən Azərbaycan oğullarının çar Rusiyası işğalçılarına qarşı apardığı mübarizə Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir.

*Zəngi çayının sol sahilində yerləşən İrəvan qalası təxminən kvadrat formasında (790 x 850 m) olub 7 ha sahəni əhatə edirdi. İki cərgəli qala divarlarının uzunluğu 4,5 km, xarici divarın hündürlüyü 10,5-12 m olan qala divarları ərazini şimal-şərq, cənub-*

---

[1] Bax: Silahsör Kemani Mustafa Ağa. Revan Fethnamesi. // Bax: M.Münir Aktepe. 1720-1724 Osmanlı-İran münasibetleri. İstanbul, 1970, s.33-34, 69. Rəhimizadə I.H. Kitabi-Gəncineyi-Fəthi-Gəncə. // Osmanlı qoşununun Azərbaycana yürüşləri (XVI əsrin sonu). Bakı, 2007.

*şərq və cənub-qərb tərəfdən əhatə edirdi. Ərazinin digər tərəfi isə sıldırımlı Zəngi çayına söykənirdi. Qoşa qala divarları bir-birindən 36-42 m aralı tikilmişdi. Həm xarici, həm də daxili müdafiə divarları kifayət qədər qalın olan qala divarlarında yarımdairəvi qüllələr vardı. Qüllələrdə atəş üçün təqribən 2450 mazğal, müdafiə divarları boyunca 53 top yerləşdirilə bilirdi.*[1]



***Şəkil 8.** İrəvan qalasının maketi. İrəvan tarix muzeyi. İrəvan.*

İrəvan qalası XVIII əsrin sonlarında daha da möhkəmləndirildi. Qala üç tərəfdən dərin xəndəklə, digər tərəfdən isə, Zəngi çayının sol sahilində sıldırımda tikilmiş 2 hündür divarla əhatə olunmuşdu. Qalanın iki qapısı vardı: şimalda – *Şirvan qapısı*, cənubda – *Təbriz qapısı*. Mühasirə zamanı sudan istifadə etmək üçün qaladan Zəngi çayına çıxış da var idi.[2]

[1] Bax: İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı, 2009, s.191.

[2] Обозрение российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях (ОРВЗ) (Составил Лекгобытов).ч. IV. СПб., 1836, с.290; Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828, Mazda Publishers in association with Bibliotheca Persica, Costa Mesa, California and New York, 1992, p.41.



XIX əsrin birinci rübündə *İrəvan qalasının içərisində Xan sarayı* (Sərdar sarayı), hərbçilərin evləri, dükanlar və iki məscid vardı. Qalanın içərisinə 2 yerdən – Zəngi çayından və cənub-şərq tərəfdə olan Qırxbulaqdan yeraltı yolla su çəkilmişdi. Rusiya işğalına qədər İrəvan qalasında *800* ev vardı. *İrəvan qalasının ətrafında – bayır şəhərdə* isə *1736* ev, *5* meydan, *8* məscid, *6* karvansara, *1670* dükan, *9* ictimai hamam, *1470* üzüm və meyvə bağı, *40* dəyirman, *6* ding vardı.[1]

1813-cü ildə burada olan Qaspar Druvil yazırdı: "*İrəvan qalası iki divarla əhatə olunub, şəhərdən yarım top atəşi məsafəsində yerləşir. Qala uzun müddət Türkiyə və İran arasında mübahisəyə səbəb olmuş, nəhayətdə İranın (Səfəvilərin – red.) hakimiyyəti altında qalmışdı. Qalanı xan idarə edir. Xan qalanın içərisində üç nizami tabor, qalanı qoruyan 60 top və süvari artilleriya bölüyünün yarısını saxlayır*".[2]



***Şəkil 9.** İrəvan şəhərinin planı. 1837-ci il*

XIX əsrin əvvəllərində Cənu-

[1] ОРВЗ, ч.IV., с.290-291.

[2] Друвиль Г. Путешествие в Персию в 1812 и 1815 годах ч.II. (Географическое описание). Москва.1826, с.8.





bi Qafqazı ələ keçirməyə çalışan Rusiya imperiyası Azərbaycan xanlıqlarına qarşı müharibələrə başladı. Çox çəkmədən Cənubi Qafqaz Rusiya imperiyasının Qacarlar İranı və Osmanlı dövlətinə qarşı apardığı qanlı müharibələr meydanına çevrildi.

Osmanlı dövləti və Qacarlar İranı ilə sərhəddə yerləşən İrəvan xanlığının ələ keçirilməsi Rusiya imperiyasının işğalçılıq planlarının mühüm tərkib hissəsi idi. Rusiyanın xarici siyasət idarələrində *"Tiflis-Təbriz tranzit yolunun üstündə yerləşən İrəvan qalasının alınmasının vacibliyi"* qızğın müzakirə olunur və çar I Aleksandrın verdiyi fərmanda Rusiyaya tabe ediləcək ərazilər sırasında İrəvan xanlığının adı birinci çəkilirdi.[1]

1804-1813-cü illərdə Azərbaycan torpaqlarının işğalı uğrunda gedən Birinci Rusiya-İran müharibəsi zamanı *İrəvan*



***Şəkil 9.*** *Zəngi çayı üzərində körpü və İrəvan xanları sarayının görünüşü*

[1] Потто В.А. Утверждение русского владычества на Кавказе.т.I, Тифлис, 1901, с.38.



*qalası* iki dəfə Rusiya qoşunlarının güclü hücumlarına məruz qaldı. Xanlığın əhalisi cəsur dövlət xadimi olan *Məhəmməd Hüseyn xan Qacarın* (1784-1805) başçılığı ilə doğma vətəninin müdafiəsinə qalxdı.

***İrəvan qalasının çar Rusiya işğalçıları tərəfindən birinci mühasirəsi və qəhrəmancasına müdafiəsi (2 iyul-3 sentyabr 1804-cü il).***

Gümrü və Üçkilsəni tutan rus qoşunları 1804-cü il iyulun 2-də gürcü əsilli, azərbaycanlılara həqarətlə yanaşan çar generalı Pavel Sisyanovun başçılığı ilə İrəvan qalasını mühasirəyə aldı.[1]

İrəvan xanının qoşunları yaxşı silahlanmışdı və qalanın müdafiəsi də lazımınca təşkil olunmuşdu. 1804-cü il iyulun 24-də rus qoşunlarının İrəvan qalasına hərtərəfli hücumu başlandı. 60 topa və 7000 əsgərə malik olan qala qarnizonunun ruslara qarşı inadlı mübarizəsi başlandı".[2]

Dövrün mənbələrində qeyd olunur ki, *"Zəngi çayının kənarındakı ən yüksək təpədə inşa olunmuş İrəvan qalasının çay tərəfdən qala divarı digər divarlara nisbətən zəif idi. Qalanın digər divarları ikiqat hasarlardan ibarət idi. Kərpic və daşdan hörülmüş qala divarları, həm hündür, həm də qalın idi. Birinci qala divarı ilə ikinci divarın arasındakı məsafə 15 və yaxud 20 sajenə (42,68 metr) bərabər idi. Divarlar arasındakı xəndək su ilə doldurulmuşdu. Qalanın 17 bürcü var idi. Qala divarları üstündə qurulmuş 60 topdan yalnız 20-si saz vəziyyətdə idi. Qalada üç mortir (qısa lü-*

---

[1] Акты, собранные Кавказской Археографической Комиссией (АКАК), т.II. док.1668, с. 810.

[2] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.298.





*ləli top – red.) də qurulmuşdu. Qalanı müdafiə edən qarnizon 7000 nəfərdən ibarət idi".*[1]

İrəvan qalasını Rusiya işğalçılarına qarşı qəhrəmancasına müdafiə edən Azərbaycan oğulları tez-tez qaladan çıxaraq bir neçə istiqamətdən qəfil hücumlar edərək rus qoşunlarına ağır itki verirdilər.[2]

Belə hücumlar nəticəsində rusların 13 zabiti və 173 əsgəri məhv edildi.[3]

Dövrün mənbələrində çar qoşunları ilə İrəvan qalasının müdafiəçiləri arasında baş verən 8 saatlıq döyüşdə rusların 3 zabit, 120 əsgər itirdiyi, 6 zabit, 200 əsgərin isə yaralandığı qeyd olunur.[4]

Çarəsiz qalmış P.Sisianov İrəvan xanına məktubla müraciət edərək məsələni itki vermədən həll etməyə çalışdı. Lakin onun İrəvan xanı ilə 6 ay davam edən yazışması nəticəsiz qaldı. Qarakilsədə mühasirəyə alınan mayor Montrezor demək olar ki, bütün dəstəsi ilə məhv edildi.[5]

1804-cü il avqustun sonunda çağırılan hərbi şurada mühasirənin götürülməsi və qoşunların geri çəkilməsi qərara alındı. Sentyabrın 1-də Sisianov axırıncı dəfə Məhəmməd xandan

---

[1] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.299.

[2] АКАК, т. II, док.1672, с. 811; , док.1673, с. 812; Дубровин Н.Ф. Закавказье от 1803 до 1806 г. СПб., 1866, с.325.

[3] Потто В.А. Утверждение русского.., с.147; Ковалевский П.И. Завоевание Кавказа Россией. (Исторический очерк), СПб., (без выходных данных), с.100.

[4] Присоединение Восточной Армении к России. т.I. (1801-1813). (сб.док. под ред. Ц.П.Агаян), Ереван, 1972, s.269-270.

[5] Записки Сергея Алексеевича Тучкова (1766-1808). СПб, 1908, с.241.

İrəvan qalasını təhvil verməsini tələb etdi. Məhəmməd xan yenidən rədd cavabı verdi. Yalnız bundan sonra – sentyabrın 3-də rus qoşunlarının geri çəkilməsi barədə əmr verildi.[1]

***İrəvan qalasının ikinci mühasirəsi və çar Rusiyası qoşunlarının rüsvayçı məğlubiyyəti (9 oktyabr-17 noyabr 1808-ci il)***

İrəvan xanı *Hüseynqulu xan Qacar* (1806-1827) 1807-ci ildən başlayaraq fransız hərbi mühəndislərinin köməyi ilə qalanın müdafiəsini daha da möhkəmləndirdi. General Qudoviç bu barədə yazırdı: *“İrəvan qalasının Avropa hərbi qaydaları üzrə möhkəmlənmiş iki divarı, xəndəyi və torpaqdan dü-*




***Xəritə 1.*** *İrəvan qalasının planı*

[1] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.302-303.

*Rusiya işğalından sonra İrəvan qalasında ruslar tərəfindən tikilmiş provaslav kilsəsini [bax: 95, 686], C.Bornoutyan saxtalaşdıraraq "erməni kilsəsi" kimi təqdim edir.





*zəldilmiş səddi var. Təpənin üstünə əvvəllər burada yerli hərbçilər tərəfindən istifadə edilməyən karteçlə işləyən toplar qoyulmuşdur. İrəvanlılar fuqas bombalarından da istifadə edirlər".*[1]

İrəvanı ələ keçirmək üçün uzun müddət hazırlıq görmüş Rusiyanın Cənubi Qafqazdakı hərbi qüvvələrinin baş komandanı Qudoviç 1808-ci il sentyabrın əvvəllərində Pəmbəkdən çıxaraq 6 minlik qoşun və 12 top ilə İrəvan istiqamətində hərəkət etdi. Rus qoşunlarının tərkibində 500 nəfərdən çox erməni süvarisi də iştirak edirdi.[2]

Hücum ərəfəsində Hüseynqulu xan təcili tədbirlər gördü. O, qalın qala divarlarının bayır tərəfində səngərlər qazdıraraq bura toplar düzdürdü. Hüseynqulu xan qalanı müdafiə etmək üçün kiçik qardaşı *Həsən xan Qacarı* 2 min nəfər döyüşçü ilə burada qoyaraq, özü 4 min nəfər piyada ilə rus qoşunlarının qarşısına çıxdı.

Sentyabrın 30-da Üçkilsəni tutan rus qoşunları buradakı ermənilər tərəfindən sevinclə qarşılandı.[3]

Üçkilsədən sonra onlar İrəvan yaxınlığındakı Qarabağ kəndində mövqe tutdu. Hüseynqulu xan düşmənə qarşı Gərniçay sahilində düşərgə salaraq düşmənə arxadan həmlələrini edirdi. General Qudoviçin əmrinə əsasən general-mayor Portnyagin İrəvan xanını təqib etməklə onun başını qarışdırdı, özü isə rəhbərlik etdiyi korpuslarla oktyabrın 3-də Zəngi çayını keçərək İrəvan qalasını mühasirəyə alsa da uğur qazana bilmədi. Böyük itkilər verən Qudoviç İrəvan

---

[1] АКАК, т. III. Тифлис, 1869, док. 467, с.254.
[2] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.306.
[3] АКАК, т. III, док.453, с.243.



qalasını ələ keçirmək üçün şirnikləndirici vasitələrə əl atdı. O, Həsən xana qalanı könüllü təslim edəcəyi halda onu sərbəst buraxaraq, *İrəvan qalası və şəhəri istisna olmaqla, bütün xanlığın hakimi təyin olunacağına* Rusiya imperatoru adından vəd verdi.[1]

Həsən xan Qacar bu təklifi qətiyyətlə rədd etdi. Hüseynqulu xan isə qalanın mühasirəsini yarıb şəhərə daxil olmağa çalışır, vaxtaşırı düşmənə zərbələr endirirdi.

Qudoviç bir neçə dəfə Həsən xandan qalanın rus qoşunlarına təhvil verilməsini tələb etdi. Bu tələblərə cavab olaraq, Həsən xan çar zabitinə yazırdı: "*Nə olursa-olsun biz sizinlə nəinki qalanın içində (bu o qədər də çətin deyil!), eləcə də açıq düzdə vuruşmağa hazırıq. Məlumunuz olsun ki, qala qarnizonu bu barədə artıq öz qərarını verib*".[2]

Həmin məktubu Qudoviçə yetirən elçi "*qala qarnizonunun axırıncı nəfərə qədər həlak oluncaya qədər silahı yerə qoymayacağını*" qətiyyətlə bildirdi.[3]

1808-ci il noyabrın 17-də tezdən sayı 3000 nəfərə yaxın olan işğalçı çar qoşunlarının İrəvan qalasına hücumu başladı.[4]

Düşmən ciddi müqavimətə rast gəldi. Rus qoşunlarının düzəltdiyi nərdivanlar da qalaya daxil olmağa kifayət etmə-

---

[1] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.308-309.

[2] АКАК, т. III, док. 460, с.249-250; Потто В.А. Утверждение русского.., с.301.

[3] Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.V, СПб., 1887, с.222; Потто В.А. Утверждение русского.., с.301.

[4] АКАК, т. III, док. 895, с.509; Потто В.А. Утверждение русского.., с.301.





di. 1000 nəfərə yaxın itki verən rus qoşunları Tiflisə doğru geri çəkilməyə və hücumu dayandırmağa məcbur oldu.[1]

Məğlub olmuş çar qoşunlarının İrəvan qalasına hücumu zamanı itkisi çox oldu. Qudoviçin çara göndərdiyi raportunda bu itkilər barədə rəqəmlər kiçildilir, guya Rusiya tərəfindən cəmi 17 zabit və 269 əsgərin öldürüldüyü, 64 zabit və 829 əsgərin isə yaralandığı göstərilirdi. Digər məlumata görə: *"…alaylar (rus ordusu alayları- red.) elə vəziyyətə düşdü ki, təkrar hücum haqqında düşünməyə belə dəyməzdi"*.[2]

***Rusiya işğalçıları tərəfindən Sərdarabad qalasının birinci mühasirəsi və qəhrəmancasına müdafiəsi (16-17 aprel 1827-ci il)***

İkinci Rusiya-İran müharibəsi (1826-1828) zamanı İrəvan xanlığının işğalına xüsusi önəm verən çar I Nikolay (1825-1855) *İrəvan* və *Sərdarabad qalalarını* ələ keçirməyin hərbi-strateji əhəmiyyətini nəzərə alır, bunu tez-tez general Yermolova xatırladırdı. Rusiya imperatoru 1826-cı il oktyabrın 21-də Yermolova yazırdı: *"Əgər İrəvanı ya silah gücünə, ya İrəvan Sərdarını pulla ələ almaq yolu ilə, ya da onunla gizli münasibətlər qurmaqla ələ keçirmək mümkündürsə, bu imkanı əldən verməyin"*.[3]

I Nikolayın Yermolova göndərdiyi 1826-cı il 1 avqust tarixli fərmanında yazırdı: *"Təcili olaraq İrəvan Sərdarı üzərinə yürüş edin. Tezliklə sizdən belə cavab gözləyirəm: Allahın köməkli-*

---

[1] АКАК, т. III, док. 476, с.253-256;док.895, с.509.

[2] АКАК, т. III, док.467, с.256; İrəvan xanlığı. Rusiya işğalı.., s.311.

[3] Шербатов М. Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность, т.II, СПб., 1890, с.122.



*yi ilə Sərdar daha yoxdur və İrəvan vilayəti tamamilə tutulub. Siz və 15 min nəfərlik rus ordusu qələbə qazanmaq üçün kifayətdir".*[1]

1827-ci il martın sonlarında Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilən general I.F.Paskeviç İrəvan xanlığının strateji əhəmiyyətini dərk etdiyi üçün ilk zərbəni bu xanlığa endirməyi qərara aldı. 1827-ci ilin yazında baron Dibiçin rəhbərlik etdiyi rus qoşunları arxiyepiskop Nerses Əştərəklinin müşayiəti ilə İrəvan xanlığı üzərinə hərəkət etdi.[2]

Aprelin 13-də Üçkilsə monastırını tutan Benkendorfun qoşunları burada ərzaq olmadığı üçün çətin vəziyyətə düşdü. Aprelin 16-da onlar Sərdarabada doğru istiqamət götürdü. *Ətrafı quru xəndəklə əhatə olunan Sərdarabad qalası 22 topa malik idi. Qala qarnizonunun sayı 3000 nəfərə çatırdı. Qalanın rəisi İrəvan sərdarının qardaşı Həsən xan və nəvəsi Fətəli xan idi.*[3]

Sərdarabad qalasını qəfil həmlə ilə ələ keçirməyə çalışan general Benkendorf aprelin 16-da səhər 5 tağım və 4 topla qalaya hücum etsə də yalnız axşam gizlicə qalaya yaxınlaşa bildi. Qala müdafiəçiləri onlara aman verməyərək toplardan atəş açmağa başladı. Niyyətinin baş tutmadığını görən Benkendorf qaladakıların könüllü təslim olması üçün qala rəisinin yanına elçi göndərdi. Fətəli xan Benkendorfun bu

---

[1] Записки Алексея Петровича Ермолова (1816-1827), ч.II, Москва, 1868, с.214.

[2] Шербатов М. Генерал-фельдмаршал.., с.222-223, 229-230, 233; İrəvan xanlığı. Rusiya işğalı.., s.332.

[3] КС, т. XXII. Тифлис, 1901, с.28.





tələbini rədd edərək *"qalanı təslim etməkdənsə, onun dağıntıları altında ölməyim yaxşıdı"* cavabını verdi.[1]

Sərdərabad qalasının müdafiəçilərindən rədd cavabı alan Benkendorf aprelin 16-dan 17-ə keçən gecə qalanı güclü top atəşinə tutmağı əmr etdi. Lakin qala müdafiəçiləri düşmənə əks zərbə endirməklə cavab verdilər. *Sərdarabad qalasınının* qəhrəman müdafiəçilərinin əzmkarlığı nəticəsində qalanı ala bilməyən rus qoşunları aprelin 17-də yenidən Üçkilsə monastırına çəkildi. [2]

***İrəvan qalasının üçüncü mühasirəsi və qala qəhrəmanlarının işğalçılara təslim olmaması (27 aprel-21 iyun 1827-ci il)***

Sərdarabadda məğlub olan rus qoşunları əsas məqsədinə yetişmək - İrəvan qalasını ələ keçirmək və xanlığı tamamilə işğal etmək üçün tələsdi.

Rusiya ordusunun hücumu ərəfəsində İrəvan xanı Hüseynqulu xan ətraf kəndlərdən qalaya çoxlu taxıl ehtiyatı topladı, qala qarnizonunu daha da möhkəmləndirdi. Təkcə İrəvan qalasında yerləşən qarnizonun sayı 5 minə çatırdı, qalada 26 top yerləşdirilmişdi.[3]

Aprelin 24-də Zəngi aşırımını keçən işğalçı qoşun İrəvanın cənub-şərqinə doğru hərəkət edərək buradakı yüksəklikləri tutdu. Aprelin 24-dən 27-ə qədər İrəvan qalasının müdafiəçiləri ilə işğalçı çar qoşunu və İrəvan xanına xəyanət edən ermənilər arasında dəfələrlə qanlı döyüş baş verdi.

---

[1] İrəvan xanlığı. Rusiya işğalı.., s.333-334.

[2] Потто В.А. Кавказская война в .., с.305; İrəvan xanlığı. Rusiya işğalı.., s.334.

[3] Кавказский сборник (КС), т. XXII. Тифлис, 1901, с.28.



Çox çətin mübarizədən sonra, aprelin 27-də mayor Voljenskinin başçılığı ilə *İrəvan qalasının* şərq tərəfindəki *Şəhərətrafı* adlanan hissə tutuldu. Bununla da İrəvan qalasının mühasirəsi başa çatdı.[1]

Hər tərəfdən mühasirəyə alınmasına baxmayaraq, İrəvan qalasının müdafiəçiləri mərdliklə mübarizə aparırdı. Buna görə də, general Benkendorf qala rəisi, Hüseynqulu xanın qardaşı oğlu və kürəkəni – Sübhanqulu xan vasitəsi ilə xanla danışıqlar aparmağa məcbur oldu. General əvvəlcə xanı pulla ələ almaq istədi, bunun nəticə vermədiyini gördükdə xana könüllü təslim olacağı təqdirdə onun Rusiya dövləti tərəfindən hakimiyyətində saxlanacağına və əvvəlki gəlirlərinin özünə qaytaracağına söz verdi. Lakin *Hüseynqulu xan* generalın təklifini nəinki qəbul etmədi, əksinə yenə də mübarizəni davam etdirməyi üstün tutdu. Aprelin 29-dan 30-na keçən gecə İrəvan süvariləri düşmən mühasirəsini yarıb qalaya daxil olmağa cəhd etdilər. Onlar Zəngi çayının üstündən keçən körpünü qoruyan düşmən gözətçi dəstələrinə qəflətən hücum edərək onları çətin vəziyyətə saldılar.[2]

İrəvan qalasının qəhrəmancasına müdafiəsi və mühasirənin uzanması baş komandan İ.F.Paskeviçin şəxsən özünü İrəvan üzərinə *Səlib yürüşünə* məcbur etdi. İ.F.Paskeviçin

---

[1] Шербатов М. Генерал-фельдмаршал.., с.256-258; Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях, т.III, вып.1-4, СПб., 1886, с.308-310.

[2] Потто В.А. Утверждение русского.., с.309-312.





özünün başçılıq etdiyi qoşun hissələri, ona qoşulmuş erməni və gürcü dəstələrinin müşayiəti ilə mayın 12-də İrəvan istiqamətində hərəkətə başladı. Mayın 17-də imperator I Nikolayın razılığı ilə təşkil edilən ilk erməni atlı alayı da əlavə olaraq bu yürüşə qoşuldu. İrəvan sərhədlərində onların sayı 1000 nəfərə çatırdı.[1]

İyunun 8-də Üçkilsədən İrəvan qalasına doğru yönələn İ.F.Paskeviç İrəvan qalası haqqında kəşfiyyat məlumatları toplamağa başladı. O, özünün hərbi əməliyyatlar jurnalında yazırdı: *"İrəvan qalasının dərin xəndəklə əhatə olunmuş bürcləri olan iki hündür divarı var. Divarların arasındakı dar zolaq da sanki xəndək kimi maneə rolunu oynayır. İç divarın qapalı bürclərində toplar yerləşdirilib, bayır divar isə mazğal və bürclərdəki falkonet (kiçik çaplı top – red.) və tüfənglərdən açılan atəşlə qorunur. Qala qarnizonu 2 min döyüşçü və təxminən bu qədər qeyri-nizami atıcıdan ibarətdir"*.[2]

General-leytenant Krasovski 20-ci piyada diviziyası və iki kazak alayı ilə İrəvan yaxınlığına gəldi. Burada o, Paskeviçlə birlikdə hücuma keçməli olan Bekendorfun mühasirə dəstəsini əvəz etməli idi.[3]

Lakin İrəvan qalasının alınmazlığını görən general Paskeviç Bekendorfun yerinə Krasovskini İrəvan mühasirə dəstəsinin rəisi təyin etdi. Mühasirə dəstəsində 3200-ə yaxın piyada, 1200 süvari, 16 top, əsas qüvvələrin tərkibində isə

[1] Потто В.А. Кавказская война в.., с.323-324.

[2] Шербатов М. Генерал-фельдмаршал.., с.262-263.

[3] Потто В.А. Утверждение русского.., с.309-312.



4800 piyada, 800 nəfər nizami və 3000 nəfər qeyri-nizami süvari dəstəsi var idi.[1]

İyunun 19-da hərəkətə başlayan rus qoşunları ayın 21-də Dəvəli kəndinə girsə də irəvanlıların güclü müqaviməti ilə rastlaşdı. Havaların isti keçməsi və əsgərlər arasında yayılan xəstəliklər də İrəvan qalasını mühasirəyə alan rus qoşunlarının müqavimətini günbəgün ağırlaşdırırdı. Krasovski general Paskeviçə İrəvan qalasının mühasirəsinin mənasız olduğunu bildirdi və mühasirədən əl çəkmək üçün ondan razılıq istədi.[2]

İyunun 21-də gecə yarısı çar qoşunu Üçkilsəyə doğru geri çəkildi. İşğalçılar geri çəkildikdən sonra Həsən xan Qacar qalanı möhkəmləndirməyin qayğısına qaldı və bunun üçün heç bir şeyi əsirgəmədi.[3]

## Sərdarabadın rus qoşunları tərəfindən ikinci mühasirəsi, qəhrəmancasına müdafiəsi və süqutu (14-20 sentyabr 1827-ci il)

1827-ci il avqustun 29-da Üçkilsədə toplaşan rus qoşunları bu dəfə Sərdarabad qalasını hədəf seçdilər. General Paskeviçin qalada çoxlu ərzaq ehtiyatının olması haqda məlumatı vardı və rus qoşunlarının gələcək yürüşünü təmin etmək üçün bu qalanın alınması zəruri idi. Sentyabrın 11-də general Paskeviç əsas qüvvələrlə Sərdaradada doğru yürüş etdi.

---

[1] Шербатов М. Генерал-фельдмаршал.., с.267-273; Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.339.

[2] Потто В.А. Кавказская война в.., с.449-451.

[3] Потто В.А. Кавказская война в.., с.451, 453-454.





Sentyabrın 14-də Krasovskinin başçılıq etdiyi qoşun Sərdərabad qalasını mühasirəyə aldı. *Sərdarabad qalası Üçkilsədən Alagözə doğru uzanan geniş düzənlikdə yerləşirdi. Dördbucaq şəklində nəhəng qüllə və qapıları olan, ikiqat hündür divarları qalaya kifayət qədər müdhiş görkəm verir və onun alınmasını çətinləşdirirdi*. Qalanın 14 topla silahlanmış iki minlik qarnizonuna Həsən xanın nəvəsi gənc Fətəli xanın başçılıq etməsi Paskeviçə qalanın tutulmasına ümid verirdi. Lakin Həsən xan qalaya girməyə müvəffəq oldu və müdafiəçilərin döyüş ruhunu yüksəldərək onları *qala divarlarında öləcəklərinə, amma təslim olmayacaqlarına and içdirdi.*[1]

Paskeviç əvvəlcə qalanı hücumla deyil, düzgün təşkil edilmiş mühasirə ilə almaq istədi və Krasovskini mühasirə korpusunun rəisi təyin etdi. Sentyabrın 15-dən başlayaraq Sərdarabad top atəşinə tutuldu və qaladakılar cavab atəşi açdılar. Sentyabrın 16-da tezdən mühasirə artilleriyası gəlib yetişəndən sonra onların qala ətrafında yerləşdirilməsinə başlandı və sentyabrın 18-dən başlayaraq şəhər 24 topdan şiddətli atəşə tutuldu. 2 gün fasiləsiz davam edən atəş-



***Şəkil 10 .*** *Sərdarabad qalası uğrunda döyüş səhnəsi*

[1] АКАК, т.VII. Тифлис, 1878, с.561; İrəvan xanlığı. Rusiya işğalı.., s.344.



dən sonra qala qarnizonu ələ keçməmək üçün mühasirədən çıxmağa müvəffəq oldu. Sentyabrın 20-də səhər Paskeviç əsas qüvvələri ilə qalaya daxil oldu. Qaladakı xeyli hərbi sursat və ərzaq - 13 top, 14 min çetvert buğda ilə dolu anbar, çoxlu pambıq parça, xeyli hərbi sursat rus qoşunlarının əlinə keçdi.[1]

**Dördüncü mühasirə, erməni xəyanəti və İrəvan qalasının süqutu (24 sentyabr-1 oktyabr 1827-ci il)**

Sərdərabad qalasının Rusiya işğalcı ordusu tərəfindən ələ keçirilməsinə baxmayaraq, İrəvan xanının qoşunları işğalçılara qarşı müqavimət göstərməkdə davam edirdi. Sərdarabadın mühasirəsindən çıxa bilən Həsən xan İrəvan qalasını möhkəmləndirməkdə idi.[2]

*İki hündür qülləsi olan İrəvan qalasının enli iri xəndəklə əhatə olunmuş divarları arxasında toplar qurulmuşdu. Qala qarnizonu 2 min əsgər və 2 min atıcıdan ibarət idi. Qaladakı ərzaq ehtiyatı yarım ilə nəzərdə tutulmuşdu.*[3]

Sentyabrın 23-də Paskeviçin dəstəsi İrəvan qalasının 2 verstliyində düşərgə salaraq, qala divarlarından 750 sajen məsafədə yerləşən Muğanlıtəpə kurqanını tutdu. *İrəvan qalası* haqqında kəşfiyyat məlumatları toplayan general Paskeviç yazırdı: *"Zəngi çayının sıldırımlı sahilindən İrəvan qalasının bağları, minarə və qüllələri ilə birlikdə içəri binalar görü-*

[1] АКАК, т.VII. Тифлис, 1878, с.561; İrəvan xanlığı. Rusiya işğalı.., s.344.

[2] Потто В.А. Кавказская война в.., с.505.

[3] Шербатов М. Генерал-фельдмаршал.., с.263; Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.345.





*nür. Dik sahilin zirvəsində, 200 sajen məsafədə mazğalları və cinahlarda bürcləri olan qala divarları uzanır. Qalanın sahil sığınacaqlarına o qədər də fikir verilməmiş, bəzi yerləri uçub-tökülmüşdür. Sahilin dik olması və çayın axını sahil sığınacaqlarına açıq şəkildə hücuma keçməyə imkan vermir, həmçinin mühasirə işlərini aparmağa da mane olur. Qalanın qalan üç tərəfi isə 50 topla təchiz edilmiş, su ilə doldurulan dərin xəndəklərlə əhatələnmiş, bürclərdən və cinahlardan müdafiə olunan ikiqat qalın divarlardan ibarət olması qala qarnizonunun inadla müdafiə olunacağından xəbər verir".*[1]

1827-ci il sentyabrın 24-də İrəvan qalasının rus qoşunları tərəfindən dördüncü mühasirəsi başlandı. Qalanın müdafiəsinə Həsən xan başçılıq edirdi.[2]

Paskeviç həmin gün Muğanlıtəpədən sağa doğru batareyalar qurdurdu və 3 gün ara vermədən 2 batareya qalanı artilleriya atəşinə tutdu. Ağır topların atəşinə davam gətirməyən qala bürcləri dağıldı. Qala müdafiəçilərini sudan məhrum etmək məqsədilə Paskeviçin əmrilə qala divarlarının dibindəki kəhrizlər daşla dolduruldu. Eyni zamanda Paskeviç Həsən xandan qalanı təslim etməsini tələb etdi. Lakin bu müraciətə məhəl qoymayan *Aslanlar başı* titulunu daşıyan *Həsən xan Qacar* əksinə, bürcləri təmir etdirərək yeni döyüşə hazırlaşdı. Növbəti təslim tələbinə müsbət cavab almayan Paskeviçin əmrilə İrəvan qalasına 40 topdan 1000-dən artıq mərmi yağdırıldı. Şəhər od-alov içində yanmağa başladı.[3] İrəvanlılar da düşməni top atəşinə tuturdular. La-

---

[1] Шербатов М. Генерал-фельдмаршал.., с.321-322.
[2] Потто В.А. Кавказская война в.., с.492.
[3] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.347.



kin qaladakı ermənilərin* xəyanət edərək düşmənlə əlaqəyə girməsi vəziyyəti daha da ağırlaşdırdı. Əvvəl olduğu kimi, yenə də erməni casusları Paskeviçlə əlaqə yaradıb qala müdafiəçilərinin mövqeyi, sayı, topların yer- ləşdirildiyi yerlər və s. hərbi sirləri ona çatdırırdılar.[1]




**Şəkil 11.** *İrəvan qalasının 1827-ci il mühasirəsinin planı*

* 1827-ci ilin aprelində şəhər əhalisi öz yerlərini tərk edib qalaya köçəndə xanlığın ərazisində yaşayan azsaylı ermənilər ruslarla əlaqəyə girməsin deyə xan tərəfindən qalada yerləşdirilmişdi.

[1] СМОМПК, вып.IV, Тифлис, 1884, с.36; Ениколопов И. Грибоедов и Восток, Ереван, 1954, с.85-86.





Erməni keşişi Nerses sentyabrın 27-28-də rus qoşunlarına təcili yardım etmək üçün Üçkilsə kəndlilərinə xüsusi çağırışla müraciət etmişdi.[1] Sentyabrın 30-da qalanın mühasirəsi daha da daraldıldı. Toplar yeni, daha yaxın mövqelərə gətirildi. Qala divarları bütün mövqelərdən atəşə tutuldu. Ermənilər qala divarlarının üstünə qalxıb papaqlarını yelləyərək təslim olduqları barədə işğalçılara işarə verdikləri halda,[2] qalanın azərbaycanlı əhalisi özlərinin qədim şəhərini qəhrəmancasına müdafiə etməkdə davam edirdi.

Həsən xanın əmrilə oktyabrın 1-nə keçən gecə qala müdafiəçiləri rus qoşunlarını yenidən güclü atəşə tutdu. Lakin bu istənilən nəticəni vermədi. Oktyabrın 1-də qaladakı ermənilər işğalçılarla əlbir hərəkət edərək qiyam qaldırdılar və Həsən xandan qalanı təslim etməyi tələb etdilər, onlar xanın bütün səylərinə baxmayaraq qalanın şimal qapılarını rus qoşunlarının üzünə açdılar. Bundan istifadə edən podpolkovnik Qurko və Şepelevin dəstəsi qalanın cənub-şərq qülləsini tutdular. Bundan sonra qalanın şimal qapılarına yaxınlaşan Krasovski tatar dilini (Azərbaycan türkcəsi- *red.)* yaxşı bilən Belova onlara elə həmin dəqiqə darvazaları açmalarını deməyi əmr etdi. Bu sözlər Belovun ağzından çıxan kimi qaladan atəş açıldı və folkonetdən açılan iri mis mərmi onun beynini dağıtdı. Bu İrəvan qalasından açılan Həsən xanın əli ilə yönəldilmiş sonuncu güllə oldu. Bir dəqiqədən sonra darvazalar açıldı və rus qoşunları qalaya daxil oldu.

---

[1] Парсамян В.А. История армянского народа 1801-1900 гг. Ереван, 1972, с.44.

[2] Галоян Г.А. Россия и народы Закавказья. Москва, 1976, с.164.



İrəvanın inadkar müdafiəçisi son anda qalanı partlatmaq məqsədi ilə barıt qülləsinə yanan fitil qoymuşdu. Lakin, poruçik Lemyakin təhlükəni vaxtında görmüş və əli ilə yanan fitili götürmüşdü. Elə bu anda qarnizon silahı yerə qoymuşdu. Həsən xan isə özünə sadiq adamları ilə məsciddə müdafiə olunurdu.[1]



**Şəkil 12.** *Çar Rusiyası işğalçıları tərəfindən İrəvan qalasının alınması (1827-ci il, oktyabr)*

Erməni xəyanətindən istifadə edərək qalaya daxil olan rus qoşunları ilə onun qəhrəman müdafiəçiləri arasında qanlı döyüş baş verdi. Müqavimət göstərməyin heç bir nəticə verməyəcəyini görən Həsən xan 200-dək əyanla qaladakı məscidlərin birinə çəkildi. Axşama yaxın İrəvan qa-

[1] Потто В.А. Кавказская война в.., с.512-513.





ları işğalçıların əlinə keçdi. Həsən xanla bərabər xüsusi tabor komandiri Qasım xan, Cəfərqulu xan Mərəndli, Əlimərdan xan Təbrizli, Aslan xan, Fətəli xan və başqaları ələ keçirildi. Bundan əlavə, qala müdafiəçilərinin 4 bayrağı, qala üzərindəki bütün toplar, silah və sursat ehtiyatı da düşmənin əlinə keçdi.[1]



***Şəkil 13.*** İrəvan qalasının çar Rusiyası işğalçıları tərəfindən alınması

İşğalçı Rusiya qoşunlarının İrəvanda törətdikləri dağıntılar və şəhərə vurduqları zərərlə bağlı V.Potto bu hadisənin canlı şahidinin dediklərini olduğu kimi qələmə alaraq yazırdı: *"Qalanın cənub-şərq küncünə çatarkən divar və bürclərin*

[1] Bax: İrəvan xanlığı. Rusiya işğalı.., s.349-350.



*dağıntısı məni heyrətə saldı. Mənə elə gəlir ki, rus mühasirə artilleriyasının dörd gündə etdiyini çərxi-fələk dörd əsrdə belə edə bilməzdi".*[1]

İrəvan qalasının tutulması ilə Şimali Azərbaycanın bütün ərazisi Rusiya imperiyasının tərkibinə qatıldı. İşğaldan sonra Qacarlar İranı və Osmanlı dövləti ərazilərindən köçürülüb gətirilən ermənilər Azərbaycan xalqının qəhrəmanlıq mübarizəsi tarixinin ən şanlı və ən parlaq simvolu olan İrəvan və Sərdarabad qalalarını dağıdıb məhv etdilər. Lakin erməni vandallarının məhv etdikləri bu qədim tarixi abidələr, qəhrəmanlıq qalaları ilk mənbələrdə və Azərbaycan xalqının yaddaşında yaşayır.

[1] Потто В.А. Кавказская война в.., с.516.

*İrəvan*
XANLIĞI

# Erməni vandallarının yox etdiyi

# İRƏVAN QALALARI

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi “İrəvan xanlığının tarixinə dair 4 adda broşürün nəşr olunması” layihəsi çərçivəsində Azərbaycan Tarixçiləri İctimai Birliyi tərəfindən nəşr edilmişdir.

**Azərbaycan Tarixçiləri İctimai Birliyi**
AZ1065, Bakı., B.Bağırova küç., 7, m.29.
E-mail: mxanbabayeva@mail.ru. Mob. (055) 353-02-33
Azərbaycan Milli Elmlər Akademiyası
Tarix İnstitutunun mətbəəsində çap edilmişdir.
Bakı şəh., H.Cavid pros., 125.